# ABŞ ilə imzalanmış xartiya Azərbaycanın mövqelərinin möhkəmləndirilməsinin daha bir mühüm amilinə çevriləcək

**"Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu (TRIPP) layihəsinin həyata keçirilməsi Rusiyaya iqtisadi və logistik üstünlüklər gətirə bilər".**

AZƏRTAC xəbər verir ki, bunu Amerika Birləşmiş Ştatlarının (ABŞ) vitse-prezidenti Cey Di Vensin Bakıya səfərinin yekunlarını və Azərbaycan-ABŞ "Strateji Tərəfdaşlıq haqqında Xartiya"sının imzalanmasını şərh edən Azərbaycanın Rusiyadakı səfiri Rəhman Mustafayev RTVI telekanalına müsahibəsində bildirib.

Diplomatın sözlərinə görə, Azərbaycanın xarici siyasəti əsas qlobal güc mərkəzləri ilə balanslaşdırılmış qarşılıqlı fəaliyyət prinsipləri əsasında qurulub. "Onun təməlində aparıcı dünya oyunçularına balanslaşdırılmış yanaşma, qonşularla qarşılıqlı faydalı əməkdaşlıq və məsuliyyətli siyasət prinsipləri dayanır", - deyə o qeyd edib.

Səfir vurğulayıb ki, ABŞ ilə tərəfdaşlığın inkişafı rəsmi



Bakı ilə Moskva arasında müttəfiqlik münasibətlərinə zidd deyil. "ABŞ ilə imzalanmış xartiya Azərbaycanın mövqelərinin möhkəmləndirilməsinin və Cənubi Qafqazda sabitliyin daha bir mühüm amilinə çevriləcək ki, bu da siyasi baxımdan regionun bütün ölkələrinə, o cümlədən Rusiyaya birbaşa fayda verir", - deyə R.Mustafayev bildirib.

Təşəbbüsün iqtisadi ölçüsündən danışan səfir qeyd edib ki, TRIPP layihəsinin həyata keçirilməsi və Zəngəzur dəhlizinin açılması zamanı Rusiya yeni nəqliyyat imkanları əldə edəcək. "Rusiya da fayda əldə edəcək, onun həyata keçirilməsi "Şimal-Cənub" dəhlizini gücləndirəcək, Naxçıvan vasitəsilə Türkiyə ilə birbaşa dəmir yolu əlaqəsi və Aralıq dənizi limanlarına çıxış imkanını, həmçinin İran, Fars körfəzi və Hind okeanı limanlarına çıxış imkanı əldə edəcək", - deyə səfir diqqətə çatdırıb.

Diplomat qeyd edib ki, Cənubi Qafqazda nəqliyyatın qarşılıqlı bağlantısının inkişafı regional sabitliyin və beynəlxalq ticarət marşrutlarının genişləndirilməsinin mühüm elementi kimi nəzərdən keçirilir.

Azərbaycan.- 2026.- 19 fevral (№32).- S.7.